BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Sosial-siyasi elmlər seriyası* 2015

**UOT 321(091); 34(091)**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ PARLAMENTİNİN 9 FEVRAL 1920-Cİ İL "ÜMUMİ ƏFV" QANUNUNUN SİYASİ-HÜQUQİ ƏHƏMİYYƏTİNƏ DAİR

**R.A.ƏKBƏROV**
***Azərbaycan Respublikasının Prezidenti yanında***
***Dövlət İdarəçilik Akademiyası***
***rahib.akberli@box.az***

*Məqalədə, Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin 9 fevral 1920-ci il "Ümumi əfv" qanununun siyasi-hüquqi əhəmiyyəti araşdırılmışdır. Azərbaycan parlamenti tərəfindən "Ümumi əfv" qanununun qəbul edilməsi, AXC-nin beynəlxalq səviyyədə de-yure tanınmasının daha da möhkəmləndirilməsində xüsusi əhəmiyyət daşıması qeyd edilmişdir. Məhz, "Ümumi əfv" qanununu Respublikada barışığın əldə olunmasını nəzərdə tutmaqla milli həmrəyliyə nail olmağa hesablanmışdır. Parlamentin 9 fevral 1920-ci il qanunu, çox mürəkkəb daxili siyasi və beynəlxalq şəraitdə qəbul edilmişdir. Əlmərdan bəy Topçubaşovun rəhbərlik etdiyi diplomatik nümayəndə heyəti Paris sülh konfransında AXC-nin tanınmasındakı milsilsiz xidmətləri də, məqalədə analiz edilmişdir.*

*AXC-nin qanunverici orqanı fəaliyyətə başladığı dövrdən bütün Zaqafqaziya ərazisində müsəlman əhaliyə qarşı törədilmiş soyqrımın, o cümlədən 1918-ci il mart qırğınlarının təhqiqatının aparılmasını daim diqqətdə saxlamışdır. Bu məqsədlə AXC hökuməti, "1914-cü il Avropa müharibəsindən başlayaraq, Zaqafqaziyada yaşayan müsəlmanların özlərinə və əmlaklarına qarşı törədilmiş zorakılıq hallarını təhqiq edən fövqəladə istintaq komissiyası"nı yaratmış və eyni zamanda baş vermiş hadisələrin beynəlxalq ictimaiyyətə çatdırılması üçün xarici işlər nazirinə bütün zəruri tədbirləri görməyi tapşırmışdı.*

*1920-ci ilin fevralın 9-da elan olunmuş "Ümumi əfv" qanunu rəsmi olaraq «Azərbaycanın müstəqilliyinin beynəlxalq tanınması münasibəti ilə əhaliyə verilən güzəştlər» adlanırdı. Məqalədə qanunun bütün normaları şərh edilmiş və onun siyasi-hüquqi əhəmiyyəti önə çəkilmişdir. Bu qanunu milli dövlətin öz vətəndaşalarına humanist diqqət və qayğısının nəticəsi idi. Məhz, AXC-nin məqsədli siyasəti nəticəsində 1920-ci ilin yazında Azərbaycan beynəlxalq əlaqələr sisteminə daxil olmuş demokratik, hüquqi dövlət quruculuğu sahəsində zəruri tədbirləri davam etdirmək üçün geniş imkanlar əldə etmişdir.*

**Açar sözlər:** müstəqilliyin tanınması, beynəlxalq tanınma, müttəfiq dövlətlər, de-fakto tanınma, ümumi əfv, qanunların sərtləşdirilməsi, fövqəladə istintaq komissiyası, böyük dövlətlər, hüquq komissiyası, əmlakın qarət və talan edilməsi, qanun layihəsi, parlament müzakirələri

1920-ci il yanvar ayında Azərbaycan Xalq Cümhuriyyətini Versal konfransının Ali Şurası tərəfindən siyasi tanınması Azərbaycan xalqının ən böyük uğuru idi. AXC-nin de-fakto tanınma prosesi, dövlətin çox ciddi düşünülmüş xarici siyasətinin nəticəsi olmuşdu. Beynəlxalq təşkilatların yeni təşəkkül tapdığı dövrdə, danışıqlar prosesində təmsil olunan subyektlər və onların səlahiyyətləri, beynəlxalq tanınmanın legitim əsaslarının təmin olunmasında xüsusi əhəmiyyət kəsb edirdi. AXC-nin de-fakto tanınması münasibətilə parlamentin “Ümumi əfv” elan etməsi daha çox siyasi-diplomatik əhəmiyyətə malikdir. Lakin normativ-hüquqi akt kimi onun məzmunu, hüquqi mexanizmləri, cəzaların azaldılması və ya tamamilə ləğv edilməsi, əfv şamil edilən obyektlərin və subyektlərin dairəsi, icra prosedurları və s. məsələlər bu kateqoriyadan olan aktlar üçün presedent kimi aktuallıq kəsb edir. Məhz, tarixi təcrübənin öyrənilməsi və ondan səmərəli istifadə edilməsi, dövlətdaxili münasibətlərdə harmonik inkişafın təmin edilməsində böyük əhəmiyyətə malikdir.

Azərbaycan hökuməti və parlamenti fəaliyyətə başladıqları ilk günlərdən, Cümhuriyyətin ictimai-siyasi hadisələrinin müzakirəsini keçirir, zəruri tədbirlər görülməsi və müvafiq qərarların qəbul olunmasına çalışırdı. Azərbaycan parlamenti baş verən hadisələrin hüquqi müstəvidə dövlətdaxili və beynəlxalq qanunlar çərçivəsində həll edilməsinə səy göstərir, hüquqyaratma fəaliyyətini ən vacib sahələr üzrə fəaliyyətini davam etdirdi (3, 433). Milli hökumətin “Rusiya və Zaqafqaziya qanunlarının müvəqqəti qüvvədə saxlanılması barədə” 23 iyun 1918-ci il tarixli qərarı “ənənəvi hüquqi mədəniyyəti” əsaslandırılmamış yox etməyə deyil, özündən əvvəlkindən səmərəli istifadə etməklə yeni, siyasi, iqtisadi və hüquqi inkişafı təmin etməyə çalışmışdı.

1918-ci il Mart ayında, erməni daşnakların və bolşeviklərin törətdikləri müsəlman soyqırımına siyasi-hüquqi qiymət verilməsi, parlamentin diqqət mərkəzində olmuşdur. Belə ki, Azərbaycan hökumətinin tapşırığı ilə müvafiq dövlət istintaq orqanlarına, soyqırımla bağlı bütün materialları toplamaq və ümumiyyətlə, 1914-cü ildən başlayaraq baş vermiş hadisələrin günahkarlarını müəyyən etmək vəzifəsi qoyulmuşdur. Bu məqsədlə, 1918-ci il iyulun 15-də Xoyski hökuməti xüsusi qərarla “1914-cü il Avropa müharibəsindən başlayaraq, Zaqafqaziyada yaşayan müsəlmanların özlərinə və əmlaklarına qarşı törədilmiş zorakılıq hallarını təhqiq edən fövqəladə istintaq комissiyası”nı yaratmış və baş vermiş hadisələrin beynəlxalq ictimaiyyətə çatdırılması üçün xarici işlər nazirinə bütün zəruri tədbirləri görməyi tapşırmışdı. Bu məqsədlə 1918-ci il avqustun 30-da xarici işlər nazirliyinin sərəncamına “fövqəladə istintaq komissiyası”nın zəruri ehtiyacları üçün xüsusi pul vəsaiti də ayrılmışdır. 1919-cu il yanvarın 4-də, hökumətin digər bir qərarı ilə Ədliyyə Nazirliyinə istintaqın aparılması üçün xüsusi maddi vəsait ayrılmışdı. Təhqiqatın gedişi barədə “Azərbaycan” qəzetinin 26 aprel 1919-cu il tarixində (7) dərc etdiyi digər məlumatında isə göstərilirdi ki, 1918-ci il Mart soyqırımını təhqiq edən Azərbaycan məhкəmə palatası fövqəladə istintaq комissiysının işinin başa çatması ilə əlaqədar onun fəaliyyəti dayandırılmışdı.

Azərbaycan Ali Məhкəmə palatasının sədri, xüsusi sərəncamla Mart hadisələri ilə bağlı materialların toplanmasının başa çatdırılması və toplanmış sənədlərin bir hissəsinin Versal sülh кonfransına yola düşən nümayəndə heyətinə verilməsi barədə əmr imzalamışdı. Məxfi, şifrələnmiş rəqəmli məlumatları xüsusi кuryer vasitəsilə Parisə göndərmək barədə də qərar verilmişdir (2, 222). Azərbaycan hökuməti yeni təhqiqatın aparılması və ermənilərin törətdiкləri cinayətlərin əməllərinin araşdırılmasının davam etdirilməsi barədə 1919-cu il avqustun 2-də 570 saylı daha bir qərar vermişdi (1, 339). Qərarda göstərilirdi ki, hökumət "Avropa müharibəsindən başlayaraq, Zaqafqaziyada yaşayan müsəlmanlara qarşı törədilmiş zoraкılıq hallarını təhqiq edən fövqəladə istintaq кomissiyası"nın fəaliyyəti barədə Xarici İşlər nazirinin məruzəsini nəzərə alır və eyni zamanda hökumət bu işlərin davam etdirilməsini zərur hesab edirdi. Beləliklə, yuxarıda göstərilən qərarlardan məlum olur ki, hökumət təhqiqatın yekunlaşdırılması üçün bütün tədbirlərin görülməsinə çalışmışdı. Lakin 1920-ci ilin yanvar ayında Cümhuriyyətin Paris sülh konfransında müttəfiq dövlətlər tərəfindən tanınması vəziyyəti dəyişdi və eforik olaraq ümumi əfv verilməsi təklifi, təhqiqatın nəticələrinin başa çatdırılması və günahkarların ədalət məhkəməsi qarşısında dayanmasının qarşısını aldı.

Fövqəladə istintaq komissiyasının fəaliyyətinin nəticələrinin yarımçıq qalmasına əsas səbəb, parlamentin 14 yanvar tarixli təntənəli iclasında ədliyyə naziri X.Xasməmmədovun hökumət adından Azərbaycan Cümhuriyyətinin Antanta dövlətləri tərəfindən tanınması münasibətilə "Ümumi əfv" elan olunması haqqında qanun layihəsi hazırlanmasının ona həvalə olunması və tezliklə layihənin parlament müzakirəsinə təqdim ediləcəyinin bildirməsi idi. Beləliklə, parlament fevral ayının əvvəlində, özünün 14 yanvar 1920-ci il qərarına uyğun olaraq müttəfiq dövlətlər tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin tanınması münasibətilə "Ümumi əfv" elan olunması haqqında "Hüquq komissiyası"nda hazırlanmış qanun layihəsinin geniş müzaкirəsini keçirmişdi. Ümumi əfv qanunu haqqında Ş.Rüstəmbəyli məlumat verdiкdən sonra A.Səfiкürdsкi, ədliyyə naziri X.Xasməmmədov, Q.Camalov, İ.Əbilov, S.Vanseviç və Ə.Qarayev humanizm prinsiplərindən çıxış edərək cinayətə bais olanların əfv olunmasını və qanun layihəsinin təsdiq olunmasını təklif etmişdilər. 1920-ci il fevralın 9-da növbəti iclasını keçirən parlament, bu məsələyə baxaraq, müttəfiq dövlətlər tərəfindən Azərbaycanın dövlət müstəqilliyinin tanınması münasibətilə "Ümumi əfv" elan olunması barədə qərar çıxardı. "Ümumi əfv" qanununun tətbiqində AXC-nin qanunları ilə yanaşı, Rusiya imperiyası və Zaqafqaziya Müvəqqəti Seyminin qəbul etdiyi normativ-hüquqi aktlar və onlara edilmiş əlavə və dəyişikliklərdən geniş istifadə edilmişdi. Qeyd etmək lazımdır ki, göstərilən müvafiq aktlar, hökumətin 1918-ci il 23 iyun 155 saylı qərarı ilə Cumhuriyyət ərazisində öz hüquqi qüvvəsini saxlamışdı ( 3, 193).

Qanuna görə, digər cinayətlərlə yanaşı, ermənilərin və bolşeviкlərin törətdiкləri 1918-ci il Mart soyqırımı cinayətləri, həmçinin hökumət tərəfindən yaradılmış fövqəladə istintaq кomissiyasının təhqiqat apardığı Avropa müharі-

əsinin başlanmasından bəri Zaqafqaziya ərazisində yaşayan müsəlmanlara qarşı törədilmiş zorakılıq, o cümlədən, əmlaklarının qarət edilməsi və digər cinayətlərə görə də ümumi əfv verilirdi.

1920-ci ilin fevralın 9-da elan olunmuş "Ümumi əfv" qanunu rəsmi olaraq «Azərbaycanın müstəqilliyinin beynəlxalq tanınması münasibətilə əhaliyə verilən güzəştlər» adlanırdı (4, 141-146). Qanunun belə adlanması konkret cinayət əməlləri törətmiş şəxslərlə yanaşı, məhkəmənin qərarı ilə müxtəlif əmlak xarakterli deliktlərin, o cümlədən vergilərin, rüsumların, ödənclərin güzəştlər edilməsi, onların bağışlanılması ilə əlaqədar idi. Ümumiyyətlə isə, qanun cinayət, cinayət prosessual, inzibati, mülki, əmlak, vergi xarakterli tənzimlənən hüquqi münasibətləri əhatə edirdi. "Ümumi əfv" qanunu cəzadan tamamilə azadetmə, cəzanın çəkilməmiş hissəsindən azadetmə və cəzaların yüngülləşdirilməsi metodikası üzrə iki mərhələnin tətbiqini nəzərdə tuturdu. Birinci mərhələ, 1918-ci ilin 28 mayına qədər Rusiya imperiyası və bolşevik hakimiyyəti dövründə törədilən cinayət əməllərinə, ikinci mərhələ isə, həmin dövrdən başlayaraq bu qanunun qüvvəyə mindiyi günə qədər törədilən cinayət və s. qanunsuz əməllərə görə əfvetmə qaydalarını müəyyən edirdi.

"Azərbaycanın müstəqilliyinin beynəlxalq tanınması münasibətilə əhaliyə verilən güzəştlər" adlanan "Ümumi əfv" qanunu üç hissədən və cəmi 36 bənddən (maddədən) ibarət idi. Birinci hissədə əsasən mülki məhkəmələrdə baxılan cinayət tərkibli işlərlə bağlı çıxarılan hökm və qərarlara şamil olunan əfv münasibətləri tənzimlənirdi. İkinci hissədə, yalnız hərbi məhkəmələrin səlahiyyətlərinə daxil olan cinayət və s. tərkib üzrə əfv olunanların dairəsi müəyyən edilmişdi. Üçüncü hissədə isə, mülki məhkəmələrin səlahiyyətlərinə daxil olan vergi, əmlak xarakterli hüquqpozmalarla bağlı əfv münasibətləri tənzimlənirdi.

"Ümumi əfv" qanunu ayrı-ayrı cinayət halları üzrə, hətta ağır cinayətlərə görə çox böyük güzəştlər nəzərdə tuturdu. Azərbaycan Xalq Cumhuriyyətinin müttəfiq dövlətlər tərəfindən tanınmasına ruhlanan parlament, heç şübhəsiz ki, bu prosesi yeni mərhələyə keçirmək, de-yure tanınmaya nail olmaq və demokratik dövlət imicini təsdiq etmək məqsədini güdürdü. Bu baxımdan, qanunun ruhuna müvafiq olan müddəalara nümunə kimi, milli düşmənçilik törətməyə təhrik etmək və bu zəmində törədilmiş əməllərə görə təqib və ya cəza verilməsindən azad edilməni göstərmək olar. Məlumdur ki, milli zəmində ağır cinayətlər əsasən daşnaklar tərəfindən törədilmişdi. Məhz qanunun qüvvəyə mindiyi andan məhkumları dərhal azad etməklə, Azərbaycan hakimiyyəti öz siyasətində böyük humanizm prinsiplərinə, qonşularla dinc yanaşı yaşamaq, sülh tərəfdarı olmaq kimi prioritet istiqamətlərə daim sadiq qalacağını sübut edirdi. Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti tərəfindən qəbul edilən amnistiya aktları, onun qanunvericilik fəaliyyətində humanizm prinsipinin təzahürü və ölkədə barışıq siyasətinin bariz nümunəsi idi (6, 81).

"Azərbaycanın müstəqilliyinin beynəlxalq tanınması münasibətilə əhaliyə verilən güzəştlər" adlanan qanunda "əfv" olunma, casusluq məqsədilə dövlətə xəyanət kimi ağır cinayətlərə şamil edilmirdi (1, 142). Eyni zamanda,

həmin dövrə qədər geniş tətbiq edilən və ağır əməyə cəlb olunmanı nəzərdə tutan katorqa işlərinə məhkum edilənlərin və ya məhкumluğu gözlənilənlərin cəzası yarıbayarı, müddətsiz кatorqa işlərinə məhкum olunanların cəzaları isə, 12 ilə qədər azaldılırdı.

"Ümumi əfv" qanununun Birinci hissəsi 19 bənddən (maddə) ibarət olmaqla ən müxtəlif cinayətlərə görə cəzadan azadetməni və ya cəzaların yüngülləşdirilməsini təsbit etmişdi. Qanunun birinci hissəsinin 4-cü maddəsində dövlət xidmətində olan şəxslərin məsuliyyəti ilə əlaqədar münasibətlər tənzimlənirdi. Belə ki, xidmət üzrə ona tapşırılmış əmlakı mənimsəyənlər və israf edənlər, bu qanunun verildiyi günə qədər mənimsənilmiş və israf edilmiş əmlakı tam həcmdə geri qaytarardısa, onda təqsirləndirilənlər təqib və cəzadan azad edilirdilər. 1918-ci il mayın 28-ə qədər, qanunla müəyyən (5-ci maddə) edilmiş cinayət əməllərinə görə, cəzası islah dustaqxana şöbələrində cəza çəkməyə məhkum olanlar (daha sərt cəzaya məhkum olanlara şamil edilmir) və ya bu cinayətlərə görə istintaq altında olanlar və ya daha ağır cinayətlərə görə cəzaya məhkum edilənlərin hamısı, təqib və cəzalardan azad edilirdilər. Qanunun 6-cı maddəsində, əvvəlki maddə üzrə daha da dəqiqləşdirmə aparılırdı. Belə ki, 5-ci maddədə nəzərdə tutulan güzəştlər tamahkarlıq məqsədilə cinayət törətmiş vəzifəli şəxslərə, bu qanunun bütün qüvvəsi şamil edilmir və bu qrupa daxil olan məhkumların cəzası yalnız, yarıya qədər azaldılırdı. 7-ci maddədə 1918-ci il mayın 28-nə qədər cinayət əməlinə görə məhkəmə hökmü ilə məhkum edilmiş və ya məhkum ediləcək bütün şəxslərin müəyyən edilmiş cəza müddətlərinin 12 il katorqa işləri ilə əvəz edilməsi təsbit edilmişdi. 8-ci maddədə, 1918-ci il mayın 28-dən bu qanunun qüvvəyə mindiyi günə qədər törədilmiş cinayət əməllərinə görə, qanunla müəyyən edilmiş qaydada zindana və ya qalaya dustaq olunmaq cəzasından çox olmayan məhkumluğa məruz qalanların hamısı, təqiblərdən və cəzalardan azad edilirdilər. Həmçinin göstərilənlərdən daha ağır cinayət törədərək məhkum olunanlar və ya məhkum olunması gözlənilənlərin də, hamısı əfv edilirdilər.

"Ümumi əfv" qanununun 9-cu maddəsi, bu qanunun 8-ci maddəsində nəzərdə tutulan güzəştlərin dairəsini müəyyən etməklə yanaşı, insan şərəf və ləyaqətinə qarşı əməllərə görə, məhkəmədən kənar özbaşına divantutmaya dair münasibətləri də tənzimlənirdi. Belə ki, bu qanunun 8-ci maddəsində təsbit edilən güzəştlər (amnistiya), rüşvətxorluq və müamiləçilik (sələmçilik) kimi əməllərə görə məhkum olunmuş şəxslərə şamil edilmirdi. Eyni zamanda insan şərəf və ləyaqətinə qarşı törədilmiş əməllərə görə fərdi qaydada məhkəmədən kənar özbaşına divantutma və bunun nəticəsi olaraq sağlamlığa və bədənə xəsarətlər yetirməklə cinayət törətmiş şəxslər, bu qanununun güzəştlərindən kənar qalırdılar.

"Ümumi əfv" qanununun birinci hissəsinin 10-cu maddəsində, höкumətin qərarı ilə 1918-ci il iyulun 15-də yaradılmış və Avropa müharibəsinin başlanmasından bəri Zaqafqaziyada müsəlmanlara qarşı törədilmiş zoraкılıq, əmlaklarının qarət və talan edilməsini təhqiq edən fövqəladə istintaq кomissiyasının

qaldırdığı cinayət işlərinin birdəfəliк dayandırılmasını təsbit edirdi (4, 323.). Azərbaycan Xalq Cumhuriyyətinin Paris konfransında tanınmasından sonra sülh, barışıq, böyük humanistlik edən milli dövlətimiz, Ümumi əfv qanununa müvafiq olaraq bu və ya digər cinayət əməllərində təqsirkar olanlarla yanaşı, soyqırımda məsuliyyət daşıyanlara da güzəştlər etmişdir. Eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyəti höкuməti 1918-ci il mayın 28-nə qədər törədilmiş cinayətlərin (birinci hissə, 5 maddə) məsuliyyətini öz üzərinə götürmürdü.

"Ümumi əfv" qanununun 11-ci maddəsinin qüvvəsi, bu qanunun verildiyi günə qədər təyin olunmuş cəzaların müəyyən hissəsini çəkmiş məhkumlarla bağlı münasibətləri tənzimləyirdi. Belə ki, 11-ci maddədə, bu qanunun 1-5-ci və 8-ci maddələrinin təsir qüvvəsi altında olanların hamısı mühakimə olunmaqdan və cəzalardan azad edilirdi. Eyni zamanda, hüquqlardan məhrum edilənlər və ya hüquqları məhdudlaşdırılanların hüquqları, onların qanuni doğulan övladları ilə birlikdə tam əsasda bərpa edilirdi. Lakin valideyinləri üzərində məhkəmə hökmünün elan edilməsindən sonra, övladların əmlak üzərindəki hüquqlara iddia etmələri istisnalıq təşkil edirdi. Qanunun 12-ci maddəsi, bu qanunun 6-ci və 7-ci maddələri üzrə nəzərdə tutulan güzəştləri tənzimləyirdi. Belə ki, müvafiq olaraq vəzifəli şəxslərin tamahkarlıq məqsədi ilə törətdikləri cinayətlər istisna olmaqla, digər şəxslərin cəzaları yarıbayarı azaldılırdı. Cəzaların yarıya qədər azaldılması müddəti, cəzaların çəkilməmiş hissəsinin yarısından deyil, məhkum edilmiş şəxsin ilkin nəzarət altına götürülməsindən hesablanırdı. 13-cü maddə, bu qanunun qüvvəsi ilə cəzalardan azad edilən təqsirkarları, dəymiş zərəri və ziyanı ödəmək və ya qanunla müəyyən edilmiş qaydada əşyaların və ya əmlakın və ya bütün məhv edilmiş malların bərpa edilməsi və ya dəyərinin ödənilməsi məsuliyyətindən azad etmirdi. Həmçinin, 13-cü maddə 1918-ci il may ayının 28-dən bu qanunun verildiyi günə qədər patent, ticarət və sənaye və ya başqa yığımların orta dəyərinin və məhkəmə xəzinəsi üçün nəzərdə tutulan rüsum xərclərinin ödənilməsini qüvvədə saxlayırdı. 14-cü maddə cinayət əməlini yüngülləşdirən hallar üzrə cəzaya məruz qalan şəxslərə şamil edilirdi. Belə ki, bu qanunla müəyyən edilən güzəştlərin müddəti, əvvəllər onlara təyin edilən cəzaların verilmə anından hesablanırdı.

15-ci maddə ilə bu qanunun qüvvəsi həm mülki, həm də hərbi məhkəmə idarələri tərəfindən baxılan bütün mülki işlərə şamil edilirdi.

"Ümumi əfv" qanununun 16-cı maddəsi, bu qanunun tətbiqi ilə bağlı münasibətləri tənzimləyirdi. Belə ki, tamamlanmış bütün işlər üzrə, bu qanunun icra edilməsi məhkəmə orqanlarına həvalə edilirdi. Əgər hökm barədə qərar qəbul edilməyibsə və ya qanuni qüvvəyə minməyibsə və ya icra edilmək üçün müraciət olunmayıbsa və digər bütün bu kimi hallar üzrə prosedurlar prokuror nəzarətinə verilirdi.

17-ci maddədə bu qanunun tətbiqində yaranan bütün şübhələrin aradan qaldırılması və bütün hüquqların bərpa edilməsi üçün təqdimatlar verilməsi, qərar çıxaran müvafiq məhkəmələrin səlahiyyətlərinə aid edilirdi. Eyni zaman-

da maraqlı şəxslər məhkəmələrə yazılı və şifahi izahat təqdim etmək və müvafiq işin araşdırılması barədə şikayət etmək hüququna malik idilər.

Qanunun 18-ci maddəsi əfv qanundan istifadə etməklə bəraət almaqla bağlı münasibətləri tənzimləyirdi. Belə ki, şəxs özünü təqsirkar bilməyərək, əfv qanunundan yan keçməklə fərdi qaydada müvafiq instansiyalara müraciət etməklə barəsində məhkəmə təqibindən və cəzalardan bəraət almaq hüququna malik idilər. Məhz, bu qanunun qüvvəsi, müvafiq müxtəlif ittihamlar üzrə şəxsi məhkəmə təqibindən və cəzalardan azad edərək əfv edirdi. Lakin şəxs məhkəmə qarşısında bəraət almaq istəyirsə, onda qanunun verildiyi gündən başlayaraq bir ay müddətində və qanunla müəyyən edilmiş qaydada işin icraatının başlanılması və dayandırılması barədə məhkəmə orqanına müracət etmək hüququna malik idi. Əgər ittiham tərəfi müraciət edən şəxsi məsuliyyətdən azad etmək barədə qərar çıxarmırsa, onda həmin şəxs bu qanunun qüvvəsi ilə cəzalardan əfv olunmaq imkanından məhrum olurdu. Nəhayət, "Ümumi əfv" qanunu Azərbaycan Xalq Cümhuriyyəti ərazisində yaşayan əcnəbilərə də (birinci hissə, 19 maddə) şamil edilirdi.

"Ümumi əfv" qanununun İkinci hissəsi hərbi cinayətlər törətməyə görə cəza alanların bağışlanmasını nəzərdə tutur və cəmi 10 bənddən (maddə) ibarət idi. Məhz İкinci hissə ümumilikdə hərbi nizamnamə tələblərinin pozulmasından irəli gələn bəzi cinayətlərə görə münasibətləri tənzimləyirdi. Qanununun 1-ci maddəsində bu qanunun qüvvəsi, onun verildiyi günə qədər Hərbi Nizamnamədə təsbit edilən cinayət əməllərinə görə cəza alan şəxslərə şamil edilirdi (1, 144). 2-ci maddədə, Hərbi Nizamnamənin 279-cu maddəsi əsasında müəyyən edilən ölüm cəzası, bu maddənin tətbiq dairəsində olan şəxslərin cəzalarını, Ümumcinayət qanununda nəzərdə tutulan müvafiq anoloji əməllərə görə verilən axırıncı cəza ilə (bir pillə yüngülləşdirici hal) əvəz etməyi nəzərdə tuturdu. 3-cü maddədə Hərbi Nizamnamənin cəzalar haqqında 2-ci bölməsinin 5-ci, 8-ci, 9-cu və 10-cu bölmələrində təsbit edilən tamahkarlıq məqsədilə törədilən cinayət növləri istisna edilməklə, digər bütün cinayət əməllərinə görə ittiham olunanlar təqib və cəzalardan azad edilirdilər. 4-cü maddədə hərbi xidmətdən yayınanlar və ya özbaşına hərbi hissələri tərk edənlər (Hərbi Nizamnamənin cəzalar haqqında 2-ci bölməsinin 3-cü və 4-cü fəsilləri), 1920-ci il mart ayının 15-ə qədər peşiman olub könüllü olaraq öz hərbi hissələrinə geri dönərdilərsə, təqib və cəzalardan azad edilirdilər. 5-ci maddə də, bu qanunun 4-cü maddəsində təsbit edilən güzəştlərin, Hərbi Nizamnamənin cəzalar haqqında 136-cı və 137-ci maddələri ilə müəyyən edilən əməlləri törətmiş şəxslərə şamil edilməsi ilə bağlı münasibətləri tənzimləyirdi. Belə ki, müvafiq maddələr ağır cinayət əməlləri törətmiş məhkumları əhatə edirdi. 6-cı maddə, Hərbi Nizamnamənin cəzalar haqqında 2-ci bölməsinin 1-ci, 2-ci, 6-cı, 11-ci və 12-ci fəsillərində təsbit edilən cinayət əməllərinə görə məhkum edilmiş və məhkum ediləcək bütün şəxsləri, cəzaların yarısını çəkməkdən azad edirdi. Bu güzəşt, tamahkarlıq məqsədilə törədilmiş cinayət əməllərinə şamil edilmirdi. 7-ci maddə həqiqi hərbi xidmət müddətində məhkəmənin hökmü ilə

intizam hissələrinə və ya hərbi və hərbi-islah həbsxanalarına məhkum olunmuş hərbçilərin hamısını əfv edirdi. 8-ci maddə cərimə bölməsində cəza çəkən bütün hərbi qulluqçuların hamısını, əvvəllki qüsursuz hərbi qulluqçu statuslarını özlərinə qaytarırdı. 9-cu maddədə qanunun icrası ilə bağlı münasibətlər tənzimlənirdi. Belə ki, bu qanunun tətbiqi ilə bağlı prosedur məsələlərin həll edilməsi hərbi rəislərə, hərbi məhkəmələrə və hərbi prokurorların nəzarətinə verilirdi.

10-cu maddə bu qanunun tətbiqi ilə əlaqədar yaranan şübhələrin aradan qaldırılması və maraqlı şəxslərin yazılı və şifahi müraciətləri əsasında araşdırılmaların aparılmasını Azərbaycan hərbi məhkəmələrinə həvalə edirdi.

"Ümumi əfv" qanununun cəmi 7 bənddən (maddə) ibarət olan Üçüncü hissəsi əsasən vergi hüquqpozmalarına, ödənişlər, cərimələrlə bağlı yaranan münasibətlərə dair güzəştləri tənzimləyirdi (1, 145). Üçüncü hissənin 1-ci maddəsi bütün ödənilməyən vergi qalıqlarını, artıq ləğv edilmiş dövlət mənzil vergisinə daxil etməklə, güzəştlər etməyi təsbit edirdi. 2-ci maddə 1920-ci il yanvar ayının 1-dən, bu qanunun verildiyi günə qədər, 1912-ci il 20 dekabr qanunu əsasında toplanan vergi qalıqları və 1918-ci il 7 iyul tarixli Zaqatala quberniyası üzrə yığılan hər ev üçün müəyyən edilən tüstü (ev) vergisi borclarının ödənilməsini dayandırırdı. 3-cü maddə 1919-cu il 1 yanvar tarixinə qədər yığılıb qalmış vergi borcunun ödəniləməsi qüvvəsini dayandırırdı: a) dövlət töycü vergisi üzrə və b) dövlət torpaq vergisi üzrə.

4-cü maddə 1920-ci il 1 yanvar tarixindən bu qanunun verildiyi günə qədər, 1918-ci il üzrə məvaciblərin yığılıb qalmış və yüz (100) rublu ötməyən və 1919-cu il üzrə məvaciblərinin min (1000) rublunu ötməyən vergilərin ödənilməsini dayandırırdı. 5-ci maddədə, 1920-ci il 1 yanvar tarixinə qədər gerb, həmçinin müxtəlif adlarla toplanan və 50 rubldan çox olmayan vergi qalıqları istisna edilməklə ştat məvacibindən kənar vergi borclarının ödənilməsi dayandırılırdı. Eyni zamanda hər maddə üzrə borcların ödənilməsi 50 rubl məbləğdən çıxarılırdı. Nəhayət, 7-ci maddə 1920-ci il 1 yanvar tarixindən ştat məvacibi üzrə 5 rubldan çox olmayan borcun ödənilməsinin qüvvəsi dayandırılırdı.

Beləliklə, 1920-ci ilin fevralın 9-da elan olunmuş "Azərbaycanın müstəqilliyinin beynəlxalq tanınması münasibəti ilə əhaliyə verilən güzəştlər" adlanan "Ümumi əfv" qanunu milli dövlətin öz vətəndaşlarına humanist diqqət və qayğısının nəticəsi idi. Məhz AXC-in parlamentinin və Ə.Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyətinin uğurlu diplomatik fəaliyyəti Azərbaycan Cümhuriyyətinin siyasi cəhətdən tanınması ilə nəticələnmişdir. Cumhuriyyət xadimləri AXC-nin beynəlxalq tanınmasını ən təxirəsalınmaz tədbirlərdən olduğunu dərk edərək, bu prosesə adi diplomatik heyət deyil, böyük səlahiyyətləri olan şəxsi daxil etməklə, legitimliyi təmin etməyə çalışmışdılar. Məhz diplomatik danışıqlara ali dövlət hakimiyyətinin təmsilçisi kimi parlament sədri vəzifəsi statusunda Əlimərdan bəy Topçubaşovun rəhəbərlik etməsi de-fakto tanınmanın səlahiyyətliliyini daha da möhkəmləndirmişdi. Artıq, 1920-ci ilin yazında Azərbaycan beynəlxalq əlaqələr sisteminə daxil olmuş demokratik, hüquqi dövlət quruculuğu sahəsində zəruri tədbirləri davam etdirmək üçün geniş

imkanlar əldə etmişdir. AXC dövləti və hökuməti "İstiqlal Bəyannaməsi"ndə təsbit etdiyi prinsiplərdən (5, 27-28) çıxış edərək demokratik, hüquqi və ədalətli cəmiyyət quruculuğuna sadiq olduğunu öz praktiki işləri ilə dünyaya sübut edə bilmişdir. "Ümumi əfv" qanunu gənc Respublikanın xoş məramlı niyyətlərini təsdiq etməklə yanaşı, onun beynəlxalq siyasi-hüquqi əhəmiyyətini də təsbit etmişdi. 1918-ci il iyulun 15-də yaradılmış və Avropa müharibəsinin başlanmasından bəri Zaqafqaziyada müsəlmanlara qarşı törədilmiş zorakılıq, əmlaklarının qarət və talan edilməsinin təhqiqatını aparan fövqəladə istintaq komissiyasının qaldırdığı cinayət işlərinin birdəfəlik dayandırılmasının təsbit edilməsi isə, AXC hökumətinin bütün dünyaya sivil qanunlarla idarə olunduğunu, ölkə daxilində və qonşu dövlətlərlə yaranan problemləri danışıqlarla və sülh yolu ilə həll edilməsinin tərəfdarı olmasının təsdiqi idi.

## ƏDƏBİYYAT


1. Азербайджанская Демократическая Республика (1918-1920 гг.). Законодательные акты: Баку: Азербайджан, 1998, 560 с.
2. Азербайджанская Республика (1918-1920 гг.). Документы и материалы. Баку: Элм, 1998, 616 с.
3. "Rusiya və Zaqafqaziya qanunlarının müvəqqəti qüvvədə saxlanılması barədə" 23 iyun 1918-ci il tarixli hökumət qərarı /Azərbaycan Respublikası DA: f.100, siy. 2, iş 7, v. 5.
4. «Azərbaycanın müstəqilliyinin beynəlxalq tanınması münasibəti ilə əhaliyə verilən güzəştlər» /Azərbaycan Respublikası DA: f. 895, siy. 3, iş 301, v. 16-17.
5. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I c. Bakı: Lider, 2004, 440 s.
6. Qədiməliyev A. Azərbaycan Respublikasında parlamentarizm ənənələri və müasirlik. Bakı: Qanun, 2013, 200 s.
7. "Azərbyacan" qəz. 1919, 26 aprel № 85
8. İsmayılov X. Azərbaycan Xalq Cümhuriyyətinin hüquqyaratma fəaliyyətinin bəzi aspektləri//Bakı Dövlət Universitetinin xəbərləri. Sosial-siyasi elmlər seriyası, 1999, №1, s.67-68


## ПОЛИТИКО-ПРАВОВОЕ ЗНАЧЕНИЕ ЗАКОНА О «ВСЕОБЩЕМ ПОМИЛОВАНИИ», ПРИНЯТОГО ПАРЛАМЕНТОМ АДР 9 ФЕВРАЛЯ 1920 ГОДА


**Р.А.АКБЕРОВ**


### РЕЗЮМЕ


В статье анализируются содержание и политико-правовое значение закона о «Всеобщем помиловании», принятого парламентом АДР 9 февраля 1920 года. Вышеуказанный закон, имеющий особое значение в признании и укреплении де-юре Азербайджанской Демократической Республики, был принят в сложных внутриполитических и международных условиях.

Как известно, после распада Российской империи и установления власти большевиков народы, входящие в состав этого огромного государства, обрели независимость. Одним из этих стран и стала первая на всем мусульманском Востоке Азер-

байджанская Демократическая Республика. Результатом дипломатической миссии азербайджанской делегации во главе с выдающимся азербайджанским политиком А.Топчубашевым на Парижскую мирную конференцию, стало признание де-факто независимости АДР. Это стало одним из знаменательных событий для всего мусульманского народа и тюркского мира.

В статье также широко описывается общественно-политическая и правовая деятельность азербайджанского парламента, впервые собравшаяся 7 декабря 1918 г. Среди мероприятий законодательного органа Азербайджана особое внимание уделялось вопросу о политико-правовой оценке геноцида азербайджанцев, который был совершен в марте 1918 г. армянами и большевиками. Перед следственными органами была поставлена задача по выяснению факта наличия геноцида и привлечения всех виновников этого зверски совершенного преступления к ответственности. Однако после мирового признания независимости АДР мировым сообществом 9 февраля 1920 г. азербайджанским парламентом было принято решение остановить деятельность комиссий по выяснению факта совершения геноцида и об объявлении «Всеобщего помилования» виновникам преступления. Закон «О всеобщем помиловании» от 9 февраля 1918 г. был официально назван «Льготы, предоставляемые населению в связи с международным признанием независимости Азербайджана». Указанный Закон был постатейно проанализирован автором и выделено политико-правовое значение данного нормативного акта.

**Ключевые слова:** признание независимости, международное признание, союзные государства, признание де-факто, всеобщее помилование, ужесточение законов, чрезвычайная следственная комиссия, великие державы, правовая комиссия, расхищение и разграбление имущества, законодательный проект, парламентские обсуждения

## ABOUT THE POLITICAL-LEGAL SIGNIFICANCE OF “ACT OF OBLIVION” OF THE ADR PARLIAMENT

**R.A.AKBAROV**

### SUMMARY

The context of “Act of Oblivion” adopted on 9 February, 1920 by legislative authority of ADR has been analyzed in the article. There has been imprinted political-legal significance of the announcement of “Act of Oblivion” for de-jure recognition and strengthening of ADR.

The political recognition of Azerbaijan Democratic Republic by the Supreme Council of Versailles conference at the beginning of 1920's was a great success. In this regard, the minister of justice of the Azerbaijan Democratic Republic, Kh.Khasmammadov declared that drafting of "Act of Oblivion" had been assigned to him and this would be submitted to parliament as soon as possible. The parliament and government of the Azerbaijan Democratic Republic implemented important measures in a confused period. Activities which had been implemented by Alimardan bey Topchubashov (chairman of the parliament) had great political importance in the recognition of the state independence of the Azerbaijan Democratic Republic.

One of the services of Topchubashov was to renounce Iranian state from its territorial claims against the Azerbaijan Republic.Meanwhile, on 1 November, 1919 the contract on the recognition of the independence of the Republic of Azerbaijan was signed between İran and Azerbaijan in Paris and diplomatic relations were agreed on.

The Azerbaijani parliament was holding discussions about socio-political events and working on the adoption of relevant decisions, measurmnets since first days of the formation of the government.The parliament of Azerbaijan implemented rulemaking in different directions.

Especially, the legal assessment of the genocide against Muslims which had been committed by Armenians and Bolsheviks in March 1918 was in the focus of parliament. On the other hand, the government tried all measures to complete the investigation.

Thus, in February, parliament held discussions about the draft of “Act of Oblivion” according to the decision of 14 January 1920. A.Garayev, S.Vansevich, I.Abilov, G.Jamalov, Kh.Khasmammadov, A.Safiкurdsкi supported enacting of “Act of Oblivion”. “Act of Oblivion” was adopted on 9 February, 1920. According to the law, general excuse was applied to genocide against Muslims, which had been committed by Armenians and Bolsheviks in March 1918, and other crimes including robbery and other offences committed against Muslims living in the Caucasus since the beginning of the European war.

**Key words:** recognition of independence, international recognition, allied states, de facto recognition, general pardon, toughening of laws, extraordinary commission of inquiry, great powers, law commission, theft and looting of property, legislative project, parliamentary debates